

RAHİM ÜÇOĞLANLI

# O GECƏ

***(20 yanvar şəhidlərinə)***

Əsdi, yaman əsdi, şimal küləyi,
Gətirdi yurduma məkri, kələyi.
Aldadıb çaşdırdı çərxi-fələyi,
Yaradan bixəbər qaldı o gecə.

O sarı Şeytanlar, ölüm səslilər,
Bütün bənd-bərəni tutub kəsdilər.
Haqqı tapdalayıb yıxıb əzdilər,
Ədalət sukuta daldı o gecə.

Cüt başlı quzgunlar qanadın çaldı,
Şığayıb bülbülün üstünü aldı.
Didib, parçalayıb pis günə saldı,
Küçələr qan gölü oldu o gecə.

Nalələr, fəryadlar ürək dağladı,
Bütöv bir məmləkət matəm saxladı.
Millət Şəhidlərin qucub ağladı,
Bakı saçlarını yoldu o gecə.

Yurdun qız-gəlini qara bağladı,
Qəlblərdə azadlıq eşqi çağladı.
Zülmün, əsarətin kökü laxladı,
Xalqım şanlı tarix yazdı o gecə!

# KİMİM VAR MƏNİM

Gəl, ay gülüm, qəm sinəmi dağlayır,
Ağlamağa bircə himim var mənim.
Başımı qoy dizin üstə, dincəlim,
Səndən özgə axı kimim var mənim?

Eşqi əhliyəm, güman etmə kefdəyəm,
Dincliyim yox, bir bazarsız həftəyəm.
Dərd alıb satıram, hər gün nəfdəyəm,
Canıma sığmayan qəmim var mənim.

Üzüb məhəbbətdə uzaq getmişəm,
Dənizlər adlayıb, çaylar ötmüşəm.
Sevgimi dorunda yelkən etmişəm,
Eşqin dəryasında gəmim var mənim.

Məkanım qeyb olub, yurd itirmişəm,
Bir mələk qəlbində yer götürmüşəm.
Məhəbbət səpmişəm, eşq bitirmişəm,
Neçə biçilməmiş zəmim var mənim.

Rahiməm, sevgimdə çox düz ilqaram,
Harda məhəbbət var, orda mən varam.
Çanağı çartlamış bir sınıq taram,
Zilim kökdən düşüb bəmim var mənim!

# GƏZİR

Gözəlim, həsrətin rahat buraxmır,
Xəyalım ardınca küçələr gəzir.
Gündüzlər ay kimi çəkilib gedir,
Payız dumanı tək gecələr gəzir.

Gecələr yata da bilmirəm, gülüm,
Ürək yanıb gedib, qor olub külüm.
Sən olan məkana çatmayır əlim,
Ruhum dam axtarır, bacalar gəzir.

Sevgi zəmisiyəm, məni qəm biçir,
Sinəmin üstündən eşq gəlib keçir.
Kədər ürəyimdə gəzib yer seçir,
Elə bil xan mülkün xocalar gəzir.

Rahiməm, sevginlə qəlbim kövrəlir,
Bir dəli həsrətlə ahım daş dəlir.

Bu dünya ay gülüm, mənə dar gəlir,
Qalxıb könlüm quşu ucalar gəzir.

## KEÇİR

Həyat adlı bir səfərə çıxmışam,
Ələnir bu ömrüm, ələkdən keçir.
Arabir covğuna, qara tuş gəlir,
Hərdən fırtınadan, küləkdən keçir.

Baxdıqca dünyaya qaralır qanım,
Ürək sızıldayır, dərddir hər yanım.
Kədər dəryasına baş vurur canım,
Minlərlə məkrdən, kələkdən keçir.

Hərdən nəzərimdə hər yanı kirdi,
Hərdən gözlərimdə ocaqdı, pirdi.
Başdan ayağacan bu dünya sirdi,
Gəliş də, gediş də, bələkdən keçir.

Rahim, bir az düşün, bir az fikrə dal,
Xəyallar mülkündə azca tənha qal.
İstər min yol tikib, min də körpü sal,
Hər yolun son ucu, fələkdən keçir!

## AĞRİMA, ÜRƏYİM

Ağrıma, ürəyim, dönük çıxma, gəl,
Bu dünyaya səni deyib gəlmişəm.
Sənə pənahlanıb, sənə güvənib,
Bu yetim ruhuma arxa bilmişəm.

Ağrıma, ürəyim, incitmə məni,
Bir ömür mən sənə qulluq etmişəm.
Bircə gün ac qoyub üzmədim səni,
Nələr kədər verib qəm yedirmişəm.

Ağrıma, ürəyim, ağrıma belə,
Sənin sağlığına ehtiyacım var.
Neçə dərdlərim var, sığışmaz dilə,
Nə çarə bilirəm, nə əlacım var.

Ağrıma, ürəyim, dərd yetim qalar,
Körpə dərdlərimə kim dayaq durar?
Qönçə fidanlarım saralar, solar,
Kim nəzər yetirib, kim suyun vurar?

Ağrıma, ürəyim, bir az döz, dayan,
Tapdaqlar altında elim var mənim.
Lütv elə, aman ver, qoy görüm, gedim,
Bir Ağdam adında gülüm var mənim!

## BİR DƏ MƏNİ BU DÜNYAYA GƏTİRMƏ

Tanrı, tutma bir də mənim adımı,
Bir də məni bu dünyaya gətirmə.
Çox sınadım qohumumu yadımı,
Bir də məni bu dünyaya gətirmə.

Bir ulduzdan öz əlinlə çap götür,
Mən əvəzdən bircə parça daş gətir.
Bir yarpağı ağacında çox bitir,
Bir də məni bu dünyaya gətirmə.

Qoy, unudum daha fikrə dalmağı,
Dərd içində özümlə tək qalmağı.
İstəmirəm bir də insan olmağı,
Bir də məni bu dünyaya gətirmə.

Bir də məni dərd yüküylə yükləmə,
Yük altında çökməyimi bəkləmə.
Bu dünyada, gəl, heç məni təkləmə,
Bir də məni bu dünyaya gətirmə.

Rahim adlı bir qulun, qoy az olsun,
Sözə döndər bir şeirdə söz olsun.
İstər eylə bir sinədə, saz olsun,
Bir də məni bu dünyaya gətirmə.

## GETDİ CAVANLIQ

Bilirəm, bir daha geriyə dönməz,
Uçdu cavanlığım, quş oldu getdi.
Ov oldu aylara, yem oldu ilə,
Zaman tələsinə tuş oldu getdi.

Sökdü bu qocalıq gənclik çəpərin,
Car çəkib söylədi gəldim, xəbərin.
Göz nurun itirdi, ruhum təpərin,
Dərd çəkən ürəklə baş oldu getdi.

Nə tez gəldi, nə tez getdi cavanlıq,
Bir də cana dönməz o dəliqanlıq.
Gül bağım qovrulub oldu viranlıq,
Ardınca çatılan qaş oldu getdi.

Rahim,cəfa çəkdi, səfa görmədi,
Eşqin çəmənindən çiçək dərmədi.
Bir gözəldən könül alıb vermədi,
Həsrətdən qurusu yaş oldu getdi!